# Əhməd bəy Ağaoğlunun qızının Mikoyanla görüşü

## Tezer Taşkıranın Moskva və Daşkənd səfəri



Dilqəm ƏHMƏD

***Təxminən yeddi-səkkiz il öncə Türkiyədəki hərracların birindən Əhməd bəy Ağaoğlunun qızı, Qarsın millət vəkili, məntiq və fəlsəfə üzərinə kitablar yazmış Tezer Ağaoğluna (Taşkıran) aid mühüm materialların olduğu qovluq satın almışdım. Həmin qovluqda bir zərfin üzərində "- Daşkənd səyahətinə aid rəsmlər. Holland nümayəndə yolladı" yazılmışdı, içərisində 6 fotoşəkil vardı. Özbək qadınların olduğu bu rəsmə bir məna verə bilməmiş, Tezer xanımın hansı tarixdə Daşkənddə olduğunu tapa bilməmişdim. Daha sonra isə bu şəkilləri tamamilə unutmuşdum. Ta ki dünən Türkiyə arxivlərində Tezer xanımın bu səyahətlə bağlı Türkiyənin Xarici İşlər Nazirliyinə yazdığı raportun mətni ilə tanış olana qədər...***

***

1956-cı ilin martında Birləşmiş Millətlər Təşkilatının İqtisadi və İctimai Heyətinin qadınlarla bağlı komissiyasında qadın haqları sahəsində çalışan şəxslərin təcrübələrini bölüşmələri üçün növbəti il seminarlar keçirilməsi qərara alınıb. Sovet İttifaqının təmsilçisi bütün məsrəfləri öz ölkəsinin qarşılayacağını bildirib və toplantının Moskvada keçirilməsini istəyib.

14 sentyabr 1957-ci ildən 3 oktyabr 1957-ci ilə qədər davam edən seminarda Türkiyəni Əhməd bəy Ağaoğlunun qızı Tezer Taşkıran təmsil edib.



Tezer xanım səyahətdən qayıtdıqdan sonra 8 iyun 1957-ci ildə 19 günlük səfəri ilə bağlı Xariciyyə Vəkalətinə raport təqdim edib. Həmin raportda seminar çalışmalarının hər biri haqqında detallı bilgi verilib, rus təmsilçilərin oxuduğu raportlar təfsilatlı şəkildə təqdim olunub. Tezer xanımın yazdığına görə, seminara 37 ölkədən gələn nümayəndələr qatılıb: "Onlardan bir qismi birbaşa ölkələrinin müxtəlif qadın təşkilatlarını, bir qismi də millətlərarası təşkilatları təmsil etməkdə idilər. Diqqətçəkən bir xüsus Amerika Birləşmiş Ştatlarının seminara qatılmaması idi. Yalnız Dünya Səhiyyə Təşkilatını təmsilən seminara qatılan və bu təşkilatda ana və uşaq sağlamlığı bölməsinin sədri olan xanım amerikalı idi. Bütün nümayəndələrin millətlərarası və ya milli bir təşəkkülü təmsil etdiklərini gördüyüm üçün mən də Türkiyədə olan müxtəlif qadın təşkilatlarının nümayəndəsi olduğumu söyləmək məcburiyyətində qaldım. Seminar çalışmaları Moskvada nümayəndələrin müsafir qaldıqları "Sovietiskaya" hotelinin alt mərtəbəsində keçirildi. "Sovet Rusiyada qadın bərabərliyi" başlığını daşıyan seminar 15 sentyabrda başladı və altı gün davam etdi... Nümayəndələrə fransızca və ingiliscə olaraq verilən raportlar bunlardı:

***1. Sovet Rusiyasında qadınlar kişilərlə eyni siyasi haqlara malikdirlər və hökumətdə fəal rolları vardır.***

***2. Sovet qadınları kişilərlə eyni mədəni haqlara malikdirlər.***



**_Tezer xanım səyahətdən qayıtdıqdan sonra 8 iyun 1957-ci ildə 19 günlük səfəri ilə bağlı Xariciyyə Vəkalətinə raport təqdim edib. Həmin raportda seminar çalışmalarının hər biri haqqında detallı bilgi verilib, rus təmsilçilərin oxuduğu raportlar təfsilatlı şəkildə təqdim olunub. Tezer xanımın yazdığına görə, seminara 37 ölkədən gələn nümayəndələr qatılıb: "Onlardan bir qismi birbaşa ölkələrinin müxtəlif qadın təşkilatlarını, bir qismi də millətlərarası təşkilatları təmsil etməkdə idilər. Diqqətçəkən bir xüsus Amerika Birləşmiş Ştatlarının seminara qatılmaması idi. Yalnız Dünya Səhiyyə Təşkilatını təmsilən seminara qatılan və bu təşkilatda ana və uşaq sağlamlığı bölməsinin sədri olan xanım amerikalı idi..._**

***3. Sovet qadınlarının iqtisadi sahədəki bərabərliyi.***

***4. Sovet Rusiyasında ictimai müavinət***

***5. Sovet Rusiyasında səhhət, analıq və uşaqların müdafiəsi***

***6. Sovet Rusiyasında qadınların təhsil haqları***

***7. Elm, mədəniyyət və sənətdə Sovet qadınları***

Seminarın açılış nitqini Birləşmiş Millətlərdə qadın komissiyasında Sovet Rusiya təmsilçisi Nina Spiridonovva etdi, Birləşmiş Millətlərdə bu cür seminar fəaliyyətlərindən gözlənilən faydalardan bəhs etdi. Onun ardınca Seminarı Tənzimləmə Komitəsinin sədri Nina Popova danışdı, nümayəndələrə ölkəsi adına təşəkkür etdi. Ondan sonra masa başında əyləşən məşhur rus qadınları təqdim olundu. Onların arasında bir neçə nazir, akademiya üzvləri, elmi sahədə və sənətdə seçilən bir çox qadınlar vardı".

Tezer xanım raportunda seminardakı hər çalışma barədə əhatəli məlumatlar verib. Məsələn, "Sovet Rusiyada qadınlar kişilərlə eyni siyasi haqlara malikdirlər və hökumətdə fəal rolları vardır" başlıqlı raport haqqında yazıb: "... Bu raporta və verilən əhatəli məlumata görə, Sovet Rusiyasında 1917-ci il inqilabından sonra qadınlara hər sahədə olduğu kimi siyasi sahədə də kişilərlə tamamilə bərabər haqlar verilmiş və Leninin "hər ev qadını dövlətin necə idarə edildiyini bilməlidir" sözü geniş miqyasda əksini tapmışdır... 1936-cı ildə gizli səslə seçki sistemi hakim olunca və qadınların da kişilər kimi seçə biləcəkləri və seçilə biləcəkləri açıqlanınca qadınlar seçim kampaniyalarında fəal rol almışdılar. Hazırda seçki komissiyalarında çalışan qadınların sayı üç milyona yaxındır... Yerli Sovet təşkilatına seçilmiş qadınların sayı da son seçimlərə görə 340314-dür... Hazırda Ali Sovet Şurasında 348 qadın vardır. Bunlar Şura üzvlərinin 25,8 faizini təşkil edir. Onlar arasında Özbəkistan Universitetində professor olan Məsudə Sultanova, Zaura Omarova, Zorakan İmankalikovanın adlarının üstündə xüsusilə dayanıldı. Onlardan ikincisi mühəndis bir qazax qadın, üçüncüsü isə bir qırğızdır...".

### "Atatürk çox yaxşı adam"

***Tezer xanımın raportda adı çəkilən qırğız qadınla olan söhbəti olduqca maraqlıdır: "Həmin gün günortadan sonra Kremldə Rusiyanın siyasi sahədəki məşhur qadınları və bəzi kişiləri ilə tanış edildik. Bu məşhur qadınlar arasında yuxarıda adı çəkilən gənc qırğız qadın mənim yanımda əyləşdirilmişdi. Onunla çətinliklə də olsa, türkcə danışdıq. Mənə təkrar-təkrar "Atatürk çox yaxşı adam" (mətndə: "Atatürk çoh yahşi adam" – D.Ə) dedi. Nümayəndələr tərəfindən verilən sualların ən diqqətçəkənini gənc bir Sudan nümayəndəsi soruşdu...***

**(ardı gələn sayımızda)**